www.achiq.org

# Səttarxan Bayraqlı Təbriz şəhər komitəsinin 7 – ci hövmə komitəsində

S.C.Pişəvəri

Firqəmiz öz siyasi həyatinda yeni bir dövrəyə ayaq qoyur, firqəmizin tarıxındə geniş bir dəyişiklik vicuda gəlməkdedir. Bundan sonra daha artıq fədakarlıq və ciddiyyət lazımdır. Dünənə qədər silah və tüfəng ilə hüququmuzun və məramımızın hifzi xüsusundar çalışırdıq, bundan sonra təbliğat və təşkilatımızı daha artıq möhkəmləndirməklə, daha böyük müvəffəqiyyətlərə naıl olabiləcəyik. Firqəmiz 9 aylıq həyatinda çox böyük müvəffəqiyyətlər əldə etdi isə də, bundan sonra yolumuzu mətanətlə getəməli və aldıqlarımızı ciddiyətlə saxlamalıyıq, bu da firqə üzvlərindən çox fəaliyyət və az təzahürat tələb edir.

Məclisin bugünkü 3-cü ümumu cəlsəsi Tehran ilə aramızda olan mövzü'a həsr edilmişdi. 9 saat müzakiratdan sonra müvafiqətnamə təsdiq olundu. Sonra Pişəvəri Tehrandakı müzakiratlarını Qəvamülsəltənənin Azərbaycan haqqındaki 7 maddəlik e`lamiyyəsini və bizim 32 maddə təkliflərimizi və yer bölgüsünü şərh verərək dedilər ki, topraq və yer əkənindir, gərək kəndlinin haqqı özünə verilsin, o dövlətin maddi və mənəvi yardımı ilə mütərəqqi və müasir üsul ilə əksin, yeri işlətsin, bu yol ilə İran tərəqqi edib nicat tapsın. Bir də qoşun məsələsidir. Xalq azadlığı üçün vicuda gələn qoşun İran azadlığını hifz etəmk üçün pak əfsərlər əli ilə idarə olunmalıdır. Bu qoşun İran azadlığını pozmaq üçün xidmət edə bilənməz. Keçən 1324-cü ilin Şəhrivər ayında balaca bir otaqda biz bu firqəni təşkil verdikdə, bir neçə nəfərdən ibarət idik. Sonra yavaş yavaş qırx nəfərə və daha artığa çatdıq. O zamanlar 12 maddəlik e`lamiyyəmiz də xalisə yerlərin bölünməsi, məktəblərdə ana dilində oxunması və Azərbaycan ayidatının yüzdə 75- nin Azərbaicana məsrəf olunması onun başlıca maddələrindən idi. 9 ay mütəmadi mübarizə nəticəsində istədiklərimizi ələ gətirməyə müvəffəq olduq. Bundan sonr bütün məktəblərimizədə istərsə ilbtidayı, orta, ali və ya xud darülfununumuzda dərslər ana dilimizədə olacaq.

Topraq məsələsi də bütün İrana şamıl olmaq üzrə həll olundu. Bir gün Tehranda məclisdə idim. Məclisin fraksionlarından birisində bir nimayəndə təklif etdi ki, yer kəndlilərə havayı verilsin. (Havayı odur ki, ərbab yerində bədbaxt kəndli özü üçün bir koma qayırar)

Bu sırada məclisdə böyük bir hayihuy qopdu, az qalldı o fraksion dağılsın. Xülasə bu sözü təklif edən nümayəndə öz sözünü geri almağa məcbur oldu.

**Amma indi İran dövləti özü xalisə yerlərini bütün İranın Azərbaycan ilə həmrəng olması üçün İran kəndlilərinə bölməyə məcbur olmuşdur.**

**İntixabat mövzuunda da bütün İran qadınları da Azərbaycan qadınları kimi tamam ictimai və siyası hüquqda bundan sonra kişilər ilə bərabər olacaqlar. Əncümən əyaləti və vilayətı xüsusunda da biz sayir İranlı qardaşlarımız üçün də geniş ilxtiyaratlı əncümənlər təşkil edəcəklərini də tə'min etdik.**

**15-ci məclis iftitah olunduğu zaman dövlət fövriyyətlə darülşuraye əyaləti, vilaytı və bələdiyyə əncümənlərinin intixabat qanununu məclisə təqdim edəcəyini təəhüd eləmişdir.**

**Azərbaycan xalqının firqəmizin və şəhamətli fədailərimizin yalnız Azərbaycana deyil, bəlkə bütün İrana etdiyi tarixi xidmətlər illər ilə, yüz illər ilə yad ediləcəklərdir.**

***(Gurultulu Və Sürəkli Alqışlar)***

**Məşrutəni minlərcə nocavanların qızıl qanları bahasına aldıq isə də 0 məşrutədən İran millətinin mənzuru olan səmərələrdən istifadə edilmədi və yaxud istifadəyə imkan verilmədi.**

**Bizim qanımızın sel kimi axması ilə açılan darülşura İran millətinin umud ocağı və ədalət evi olması əvəzinə haman darülşura kürsüərini məşrutəyə zidd olub millətin canini alıb qanını soran xalq cəlladları qırx ill işğal elədillər.**

**İndi məşrutədə alabilmədiklərimizi almışıq. Əgərçi azadlıq uğrunda, arvatlı, kişili, kiçikli - böyüklü və son nəfərimizə qədər ölməyə, qurban olmağ hazırıdıq, amma 200 nəfərə qədər verdiyimiz qurbanlar müqabilində müvəffəqiyyətimiz çox böyükdür.**

**Çox qurban vermədən, böyük sərvətlər ortadan getmədən və qardaş qanı tökülmədən bu böyüklükdə müvəffəqiyyətlərə nayil olabildik. Bizim istədiyimiz qan tökülmədən, İran millətinin arzularını yerinə yetirmək idi. Oda istədiyimizmiki ələ gəldi.**

**Bunların hamısı şanlı firqəmizin bəsiyrətlə düzgün apardığı siyasət nticəsində ələ gələn müvəffəqiyyətlərindəndir.**

***(gurultulu və şiddətli alqışlar və hurra sədaları).***

**İndi icazə verin dövlətin 7 maddəlik e`lamiyyəsini və 15 maddəlik zəmiməsini oxuyum.**

**Vəkillərimiz əlli nəfərə yaxın artacaqdır. Dövlət tə'əhhüd edibdir məclis açıldıqda demokrasi üsulunda intixabat qanunu məclisə fövriyyətlə təqdim etsin.**

**Əncümənlərin intixabatı qanunu İranın hər tərəfində bizim indiki şəkildə demokrasi üsulu ilə geniş ixtiyaratlı olacaqdır. Buna görə biz çox məsrur və məmnunuq.**

**Bizim vəzir cəngimiz və xaricə vəzirimiz zatən yox idi. Bizdə xalq qoşunları vizarəti var idi, çünkü biz İrandan ayrılmamışdıq, o sözlər xalqı həmişə əsarət altında saxlayıb qanını zəli kimi əmmək istəyən cəllad mürtəcelərin bizə bağladıqları iftira və böhtandan başqa bir şei deyil idi.**

**Gömrüklərin ayidatı dövlətindir. Amma Azərbaycan gömrüklərinin ayidatından zdə 25-i Azərbaycan milli darülfunununa veriləcəkdir. Bu da ayda yüzmindən 120 min tümənə qədər təxmin olunmaqdadır. Özümüz də ildə milyon yarım təxsis etmişik, bu da darərülfununumuzun dilplomları Tehran darürulfunun ilə rəsmən bir əyarda olacağı deməkdir.**

**Gömrüklərin yüzdə beşi darültərbiyə, yüzdə beşi də şəhərimizin əhalisinin gdişgahı və səyahət məhəlli olan Şah Gölünün abadlığı üçün veriləcəkdir. Bunlar da qırx min tümən miyzanında olar. Bu pullardan əlavə özümüz də Azərbaycanın tamam şəhərlərinin darültərbiyələrinin və şəhərlərinin abadçılığına böyük pullar təxsis etmişik və edəcəyik.**

**Darültərbiyələrimiz urupa darültərbiyələri kimi tam mə'nasi ilə həqiqi darültərbiyə olmalıdırlar.**

**Şəhərlərimiz çox tezlikdə gərək abadlaşsınlar. İrtica' yadigarı ulan o köhnə xərabazarlıqlardan bir nişana qallmayacaqdır.**

**Şah Gölünü urupa yaylaqları tərzində abadlaşdıracayıq. Oranı elə bir hala salacayıq ki, ayrı məmləkətlərdən oraya istirahətə gələnlər olsun.**

**Orada hərcür istirihət və məşğuliyyət məhəlləri bina ediləcəkdir. Azərbaycanın həryerindəki darültərbiyələrə hələlikdə bir milyon yarım büdcə müəyyən olunmuşdur.**

**Bundan sonra fədailərimiz, o əziz kəndli balalarımız öz obalarını, yurd -yuvalarını nigahban adi ilə özləri göztləiəcəkdir.**

**Bundan sonra kəndlilərimizin özləri özlərinə tapışırılacaqdır. Küll Azərbaycan, və bütün İran kəndliləri bundan sonra irtica' quyriuğu**

**olan mənhus jandarm adını bır daha eşitməiəcək və onun şum üzünü bir daha görənməyəcəkdir.**

**Xəmsə məsələsində demək istəyirəm ki, Xəmsəlilər də Azərbaycanlıdan başqa ayı bir xalq deyildirlər, Zəncan da eynən bura kımı olacaq. Qanımız, canimiz birdir. Bundan sonra xalq düşmənləri Zülfqarılar, Yəminilər, Səlahdarilər kimi zalımlar Zəncan torpağına ayaq basa bilənməyəcəklərdir və firqəmizin bütün qüvvəsini Zəncanda saxlayacayıq, məclisdə də çalışacayıq Zəncanlı qardaşlarımızın heç bir xüsusda nigaran olmalarına məhəl olmasın. Hər cəhətdən əmin ola bilərlər. İdarə rəysləri ilə əncümən əyaləti hey'ət rəisəsindən bir şurayi əyaləti təşkil tapacaq, Azərbaycanın işlərinə o baxacaqdır.**

**Bugün İranın hər tərəfində hətta Tehranda və Tehran mətbu'atında da azadlıq və demokrası cərəyanları məsruriyyətlə görünməkdedir. Buna görə İranın fəlakətdən nəcat tapmağı ümid olunmaqdadır.**

**Ma'arifimiz demokrasi proqramı üzəri ilə inkişaf etməlidir. Azərbaycandakı Kürd, Erməni və Asurı kimi əqqəlliyyətdəki qardaşlarımız bizim azadlığımızdan eyn hüquq ilə bərxurdar olacaqlar, onlar da öz milli və ictimai işlərində bütün- bütünə azad yaşayıb məktəblərində öz ana dillərində təhsil edəcəklər. Ruznamələri, tiatrları öz dillərində olacaqdır.**

**Bələdiyyə əncümənləri indi bizim seçdiyimiz kimi qalacaqdır. Dövlət bizim demokrası üsulu ilə seçdiyimiz kimi bələdiyyə intixabat qanununu məclisə təqdim etdiyində İran vilayətləri və şəhərləri əhalısı o zaman Azərbaycanın, İrana nə qədər böyük xidmət etdiyini biləcəkdir.**

**Biz gərək məclis şuraya elə adamlar göndərək ki, qəhrəman fədailərimizin, xalq qoşunlarımızın və fədakar firqəmizin çəkdikləri zəhmətləri və məşəqqətləri verdikləri qurbanları və tökülən qanları hədərə getməsin!**

**Vəkillər Azərbaycan demokrat firqəsindən olmalıdır. Bizim nümayəndəlrimiz xalqimizi inandiran, onu sevən, onu müdafiə edən və onun eşqindən can verən adamlar gərək olsunlar.**

**İşsizlərə gəlincə bugünə qədər 10 min nəfər işsizə iş tapmışıq. Çox yaxınlarda karxanalarda və binasına başladığımız darülfunun, milli muzə, Azərbaycan əyaləti əncümni və Azərbaycan bankının inşaat işlərində işləmək üzrə dörd- beş min nəfərə də iş tapılacaqdır.**

**Biz bu binalar üçün beş milyon tümən hələlikdə büdcə tə'yin etmişik. Firqəmiz çox çətin bir şəraitdə işə başladığı halda çox böyük işlər**

**görmüşdür, məsələn nehzətimizin əvvəlində bankda fəqət 4 milyon tümən pul var idi, o sırada dövlət mə'murlarına da dörd milyon tümən verməli idik.**

**Demək əlimizədə maddi cəhətdən bir şei yox idi, halbuki, indi demokrat firqəsinin sayəsində təkcə Təbrizdə deyil sayir şəhərlərimizdə böyük işlər görmüşük və görməkdəyik. Bu günə qədər şəhərlərimizdə iyirmi mərisxana açmışıq ki, minə qədər təxtxabları vardır, Azərbaycan Milli məclisi bu günə qədər 12 milyon tümən ictimai işlərdə işlətmək üçün büdcə təsvib etmişdir. İndi firqəmiz birinci pilləni keçib ikinci pilləyə çıxmışdır, bundan sonra daha da mətanət və bəsirətlə qədəm götürməyimiz lazımdır, taza bir dövrəyə daxil olmuşuq. İndiyə qədər firqəmiz üzvlərinin əlinə tüfəng verirdi, bundan sonra çalışmaq və şəhərlərimizi abadlaşdırmaqdan ötrü, silah yerinə bell- külüng bir əlimizədə, təcrübə, elm və biligimizi artırmaq üçün kitabda o biri əlimizədə olmalıdır, ta ki, xalqımızi səadətə doğru aparaq.**

**Biz gərək tərbiyə və elm üçün çalışaq. Yolda, evdə və hər yanda hamı ilə gərək nəzakət və tərbiyə ilə rəftar edək. Xalqımızı nəzakət, gözəl əxlaq və yaxşı tərbiyəmiz ilə cəlb edib səadətə yetirək!**

***Yaşarsın xalqımız! Yaşarsın firqəmiz!***

**(Azərbaycan» ruznaməsi, 2 şənbə 10 tir 1325- ci ill şümarə 238 ikinci dövrə)**